Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Nazir: Subsidiyaların ayrılması zamanı süni intellektdən istifadə olunur

indicə




Kənd təsərrüfatı naziri Məcnun Məmmədov

2026-cı ildən etibarən subsidiyaların ayrılması zamanı əkin sahələrinin yoxlanılmasında da süni intellektdən istifadə olunur.

AZƏRTAC-ın xəbərinə görə, bunu sentyabrın 8-də Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində jurnalistlərə müsahibəsində kənd təsərrüfatı naziri **Məcnun Məmmədov** bildirib.

**"Peyk vasitəsilə çəkilən təsvirlər süni intellekt vasitəsilə avtomatik təhlil edilir, ərazinin koordinatları, əkinin mövcudluğu, onun inkişaf fazaları və ümumi vəziyyəti dəqiqləşdirildikdən sonra subsidiyaların ödənişi həyata keçirilir"**, - o vurğulayıb.

Azərbaycanda aqrar sektorda subsidiyalarla bağlı bir sıra dəyişikliklər edilib. Sentyabrın 7-də açıqlanan dəyişiklikləri Aqrar Subsidiya Şurası yeni dövlət dəstəyi mexanizmi kimi təqdim edib. Bu qərara görə, həm bir sıra sahələr üzrə yeni subsidiyalar veriləcək, həm də bəzi hallarda onun miqdarı artırılacaq.

Amma bir sıra müstəqil iqtisadçılar hesab edir ki, bu dəyişikliklərdən əsasən "oliqarx məmurlar" faydalanacaq. Onların fikrincə, yeni qərarda qoyulan bəzi şərtlər bunu deməyə əsas verir. Həmin iqtisadçılar vurğulayır ki, xüsusən heyvandarlıqla bağlı yeni subsidiyalarda həm örüş yerlərinin sahəsi və həm də mal-qaranın sayı ilə bağlı göstərilən həddə sadə fermerlər çata bilməzlər.

Amma kənd təsərrüfatı naziri jurnalistlərə deyib ki, subsidiya mexanizmində əsas diqqət məhsuldarlığın artırılmasına yönəldilib.

Azərbaycanda aqrar subsidiyaların verilməsinə 2007-ci ildən — yanacağın qiymət artımı ilə paralel olaraq başlanılıb. Ötən illər ərzində subsidiyaların həcmi vaxtaşırı artırılıb.

Hesablama Palatası bu il Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) və Aqrar Subsidiya Şurasının son 3 illik fəaliyyəti ilə bağlı audit nəticəsində bir sıra pozuntu, uyğunsuzluq aşkar etdiyini açıqlamışdı. Orada bildirilirdi ki, hətta suvarılmayan sahələrə subsidiya verilib.

Bir il əvvəl isə Maliyyə Nazirliyi də əkin sahələri üçün ayrılan subsidiyaların məbləği ilə istehsal həcmi arasında uyğunsuzluğa diqqət çəkmişdi.

**'Sahəni şişirdirlər' - Şumlanmayan tor...**

Mənbə: AzadlıqRadiosu



0:00 2:54

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur